


www.kitabxana.net

Milli Virtual Kitabxananın Təqdimatında

**Nazilə Gültac**

**“Yaşıl pıçıltı”**

İstedadlı şairənin yeni poetik kitabı…

YYSQ - Milli Virtual Kitabxananın
e-nəşri N 13 (2012)

Bakı - 2012

www.kitabxana.net - Milli Virtual Kitabxana

www.kitabxana.net

Milli Virtual Kitabxananın Təqdimatında

**Nazilə Gültac**

**"Yaşıl pıçıltı"**

İstedadlı şairənin yeni poetik kitabı…

YYSQ - Milli Virtual Kitabxananın
e-nəşri N 13 (2012)

Virtual Redaktoru  və e-nəşrə hazırlayanı:

Aydın Xan (Əbilov) - yazar-kulturoloq
YYSQ - Milli Virtual Kitabxana

Bakı – 2012

www.kitabxana.net - Milli Virtual Kitabxana

NAZİLƏ GÜLTAC



# YAŞIL PIÇILTI

Bakı -- 2010

**Redaktor: Səxavət Talıblı**

Nazilə Gültac. "Yaşıl pıçıltı", Bakı, "Adiloğlu" nəşriyyatı, 2010.

Gül- çiçəklərdən, yarpaqlardan, buludlardan, dağlardan, sulardan doğulub şeirlərim.

Tanrının yaratdığı bu gözəllikləri seyr etmək istəyirsənsə, mənim könül dünyamı səyahət et yetər.

www.kitabxana.net - Milli Virtual Kitabxana

# BAHARI GÖZLƏYİRƏM

## VƏTƏN DAŞI

İşıldaböcək güllələr
ocağına yağdı.
Üstünə qan
çiləndi.
Bəyaz telliyə
şirdaş,
gizli sevdasına
çıraq daşıydın .
Tariximin yaşıdı,
əli qanlı
zəmanənin
üzü qaradır
yanında.
Düşmən ocağında
donan,
çatlayan,
kül içində
yanan daşım.
Vətən qalasına
hörüləcək
hörgü daşım.
Ocaq daşım - Vətən daşım.

## BU YOLLARIN UZUNU

Bu yolların uzunu-
Qarabağa gedən yol.
Bu yolların uzunu
Bərabərdi eninə.

Bu yolların uzunu-
Sonsuz arzu karvanı,
Yollar arandan dağa
Yönü Qarabağadı.

Bu yolların uzunu
İtib çiçək düzümü.
Izlər silinib gedib,
Daş göynədir dizimi.

Bu yolların uzunu,
Keçir Cıdır düzündən.
Taxmışam ürəyimə
Yolların üzüyünü.

## BAHARI GÖZLƏYIRƏM

Igidləri çox olubdur
bu yurdun.
Düşmənləri çoxalıbdır
bu yurdun.
Igid söykənir dağa.
Dağlar yağı məskəni.
Dərələr çəkə bilməz,
uca dağlar çəkəni.
Qaratikan kolları
Qara keşiş yolumda.
Xarı bübülü dərməyə,
dərib telə hörməyə,
bir igid istəyirəm.
Eheyy, dağlarım!
Baharı gözləyirəm!

www.kitabxana.net - Milli Virtual Kitabxana

# VƏTƏN

Parçalanıb, ələnmisən.
Oğulları didərgin -sən,
Dilim- dilim bölünmüsən,
Vətən.

Xarı gülü bəndə düşən,
Bülbülləri dərdə düşən,
Yolları kəməndə düşən,
Vətən.

# VƏTƏN XƏRİTƏSİ

Qızım çəkdi
Vətən xəritəsini.
Azərbaycan sözünü
Yerləşdirə bilmədi,
xəritənin üstünə.
“Azər “ yazdı,
“ Bay” yazdı,
Dedi ki,
” Can “sözünə
yer azdı.
Məndən
yardım istədi.
Baxdım xeyli
ana yurdun
paralanmış köksünə.
Dağ çəkilən səddinə.
Dəmirqapı Dərbəndin
qapısını döymədim.
“C”-nı cənuba yazdım,
Dedim canımız orda.
Qızım çoxumuz orda.
“A” qondu Borçalıya,
And yerimizdi dedim.
“N”-nı qərbinə yazdım.
İrəvana xal saldım.
Orda nidamız qalıb.
Orda naləmiz yanıb.
Qızım indi bax , dedim.
Böyük Vətənimizin
Bəxtsiz xəritəsinə

## KƏRKÜK OĞLU

***Kərkükdəki qanlı olaylar da ağlatdı mәni***
**Qarabağ dərdi kimi.**

Biz Kərkükdən, Kərkük bizdən iraqdı.
Qanlı həyat özü boyda bir ahdı...
Ağlar gündədir Kərkük,
Cocuqları boynu bükük.
Türk dünyası qəzəbindən alovlanır.
Aman yarəb!Başdan başa İraq yanır.
Neçə-neçə soydaşımız
qanlarıyla yuyulubdur.
Niyə bizim haqq səsimiz
Bax, bu qədər boğulubdur?
Heyrət ey büt!-deyən babam:-
Ölüm ilə pəncələşir neçə adam.
Lənət olsun!Bu nə dava,bu nə edam!?
Ekrandakı bir verilişdən
salam dedi , Kərkük oğlu.
Meyit dolu sağı, solu.
Səsində bir ağrı vardı.
Gözlərində cihad vardı,çağrı vardı.
Yanğı dolu,kədər dolu
nalələrə qanım donur.
Harayını eşidən yox,
Kərkük oğlu,
inamlı ol, inamlı dur!
Ən sonunda inam udur.

## HƏYAT NƏĞMƏSI

Ömür - sınıb dağılmış
val qırıqları.
Bir yanda”do”
Bir yanda” sol”.
Hər parçası
Bir şərqi söylər.
Birində uzaqların hıçqırtısı,
Birində ilk sevginin nidası.
Çılğın iniltilər - qor dənələri,
Qəlbimə çırpılmaqda.
“Do” dan başlayan həyatım
“Si” notunda çırpınmaqda
Torpağımda haqq davası,
geyilməmiş döyüş paltarım-
nəqəratım.
Həyat - sınıb dağılmış
val qırıqları.
Bir şərqi söylə,
Do, re, mi, fa, sol.

## TÜSTÜ

Ay ocaqdan qalxan tüstü,
Ocagına qalxan tüstü,
Süzmə" Kərəm" havasına.
Odu ocaqdan ayırma.
Ayrılıq tanışdır mənə.
Sönmüş ocaq kül dağıdır.
Kösövlər məni dağlayır.
Köz bağlamır,vətən dərdi.
Ay ocaqdan qalxan tüstü,
Göy üzünə qonan tüstü,
Sən allah,  üstümə gəlmə.
Öz tüstüm özümə bəsdi.

## PAYIZ

Əsən küləyinlə öyünmə,payız,
Taleyin rüzgarı ondan dəlidir.
Yağan yağışınla öyünmə,payız,
Axan göz yaşlarım yagmur selidir.

Gülləri solduran soyuqluğunun
O soyuq baxışdan hec fərqi yoxdur.
Başım üstdən keçən tutqun buludun
Qübarlı könlümdən xəbəri yoxdur.

Sən öz gəlişinə güvənmə, payız,
Onsuz da sərt keçib ömrümün yazı.
Çaxan şimşəyinə sevinmə, payız,
Hopub gözlərimə dünya işığı.

**BU GÜN**

Dəli külək xışmalayır,
Küçələri hey daşlayır,
Gah bu yana, gah o yana.
Bu gün mən külək kimiyəm..

Şeh düzülən ləçəyində
kəpənəklər güzgülənir.
Bir işığa,
bir şəfqətə təşnədir.
Bu gün mən güllər kimiyəm

Yarpaqlar sulara çətir,
Kölgəsi suda gizlənir,
Axır gündoğana gedir,
Bu gün mən sular kimiyəm.

Dərələrə zülm eyləyib
duman dağlarda toxtayır.
Üşüməsin deyə, dağlar,
düymə-düymə yağışlar .
dumanın yaxasını bağlayır.
Bu gün mən duman kimiyəm.
Bu gün mən ümman kimiyəm.

## UÇUŞ

Gerçəklər dolanır göylərdə.
Ruhuyla,varlığıyla.
Diz çökmüşəm,
bir ürəyin önündə.
Sevgi duası pıçıldayıram.
Səsin mənim deyil,
bağlı qapının o üzündə.
Qapının bu üzü yoxmuş,
o üzü yıxılmış.
Dərya gözlərimdə
rənglər yuyulmuş.
Durnalar uçub gedir,
söyüdlər saralmamış.
Qışı görməsin deyə.
Bütün gerçəklər önümdə,
öz rəngində.....

## ŞƏHİDLƏR XİYABANI

Bura ruhlar məmləkəti,
Sehrlidir, müqəddəsdir.
Burda daş da çiçək açır.
Qərənfilin üzündədir,
Səhər-axşam o qanlı şeh.
Şəkillərin üzünə meh
Sığal çəkir, əzizləyir..
Günəş öncə ora baxır.
Ay gecələr lay-lay deyir.
Yer də, göy də birlikdədir
Burda yatan mələklərdir.
Burda yatan şəhidlərdir.

## MƏNİM DƏNİZLİ ŞƏHƏRİM

Səninlə çox şeyi
paylaşmışıq.
Acılı, şirinli günləri
yaşamışıq.
Yuxusuz gecələrimin
nağılı.
Təlatümlü ürəyimin
sığalı.
İlahi eşqimin
ilk sözlərini
Qumlu sahilinə
yazmışam.
Dərdimi, möhnətimi
səninlə ovutmuşam.
Ağlayanda göz yaşımı
duzlu suyunla
yuyuram.
Gözlərimi ümidli
sabahınla
açıram.
Arzularımın limanı-
Mənim dənizli şəhərim.

## TƏMİZLİK

Qış döysə də qapını
Yollar üzü yazadır.
Gör ürək nə söyləyir,
Çoxdan gözü yoldadır.
Göy üzü bozarsa da,
Dan üfüqdə qızarır.
Gözlərim hey boylanır.
Könlüm uzaqlardadır.
Alıb qoynuna məni.
Çiçək ətirli dəniz.
Bu dünya başdan başa
Yaz nəfəsiylə təmiz.

# QAR

Ovuc- ovuc ələnir.
Nazla astaca enir.
Sükutun dinən dili,
Ağ rəngin kölgəsidir.

Toxunur yanaqlara,
İz qoyur dodaqlara
Qışın bəyaz çiçəyi,
Bir müjdədir  bahara.

Ağ duvağa bürüyür,
Gəlin olur ağaclar.
Küləklə rəqs eyləyir.
Rəqqasədək yağan qar.

## HƏLƏ Kİ

Günlərim
sakitcə
saralıb,
təkəbbürlə
tökülür
ömrümə.
Hələ ki,
mən də
təkəbbürlə
keçirəm,
“ xəzəllərin”
üstündən.
Ürəyimin
qanadlarını
açıb,
Bahara
can
atıram.....

# ÖMÜR NAĞILI

## ŞEIR YAZANDA

Tufanlara qoşuluram,
Fırtınayla savaşıram,
Dəli Kürə qarışıram,
Şeir yazanda

Dağ  qoynunda bitən daşam,
Daşlı  bulaga sirdaşam,
Göy üzünə  axan yaşam,
Şeir yazanda.

Kol dibində bənövşəyəm,
Zər qanadda bir bəzəyəm,
Təbiətə bənzəyirəm,
Şeir yazanda.

## GERİYƏ BAX,KÖNÜL

Geridə-
Heyrətlə açılmış
Bir cüt baxış.
Nurlu yağış.
Orada daha-
Bir iki xoş anlar.
Şirin – nabat xatirələr.
Sevgi qanadında
uçduğun illər....
Var  daha nələr, nələr
Geriyə bax, könül.
Bu gününü  yaşamaq üçün.

## FƏDAKARLIQ

Çaylar dənizlərə verir ömrünü.
Buludlar sonunda yağışa dönür.
Qönçələr  meyvə üçün
ləçəklərindən keçir.
Quşlar yaşasın deyə,
təbiət usanmadan
böcəklərindən keçir.
Hərənin bir cür bitir,
yaşadığı bu ömür.
Biz torpağa lazımıq,
bir ovuc torpaq üçün

## ÖMÜR

İnsan yaşayanda
göylərin olur.
Olumu göz ilə qaş arasında,
Bir ömür yaşayırıq,
Ölümü göz ilə yaş arasında.
Ömrün bu başından
O başına yol yaxın,
O başından bu başına
yol uzaq.
İnsan öləndə torpağın olur.
Göy üzünə onun ahı,
Bir də məhəbbəti çatır.
Bir ömür yaşayırıq.
Sonunda bağlı qapı.
Onu ancaq ölüm açar.
Ömür- ölümə açar.

**İNANDIM AYRILIĞA**

Boylananda sola , sağa.
Başı qarlı "Qarı"dağa.
Baxanda sarı yarpağa,
İnandım ayrılığa.

Yanağımdan yaş sürüşdü.
Gül üzündə şeh üşüdü.
Göydən durna teli düşdü.
Inandım ayrılğa.

## DİVAR

Dörd divar arasında
kiçilir göy üzü də.
həsrət də,
qara bulud kimi
dolanır göy üzündə.
İşıq da can verir,
dörd divar arasında.
Qapı üçün bir divarı
yıxmaq yetər.
Uçulan divardan
görünür həyat.

## DÜNYA HƏLƏ XIRDADI

Düyğularım ürəyimə avardı.
Ayrılıq var , arzulara divardı.
İlk sevginin nağılında div vardı.
Sevən könül, sənin yarın hardadı?

Bu yazılan taleyimdi, qədərdi.
Hər sevincin bir üzü də kədərdi.
Qismətimlə cəngə girmək hədərdi.
Taleyimin gülər günü yardadı.

Başım üstdən ay – ulduza baxacaq,
Eşq bulağım gecə- gündüz axacaq,
Axır bir gün gəlib mənə sığacaq,
Sevgim böyük, dünya özü xırdadadı

## QAYIDIŞ

Qanadlanır,
Öz- özündə çimir,
sərinlənir.
Fəvvarədən çilənir,
Havada çiliklənir.
Su yenidən suya qarışır.
Billurlaşır, saflaşır.
Baxdıqca suya,
suya dönürəm mən də.
Ovcumda bir damla su.....

## TABLOLAR

***Səxavət Talıblının "Tablo" şerini oxuyarkən aldığım təəssüratdan .***

Göy üzü Tanrının kətan parçası.
Göy üzü Tanrının bir möcüzəsi.
Süzə- süzə  gəzən qara buludlar.
Ağca buludları küncə sıxaraq,
Günəşin önünə keçmək istəyir.

Qürub çağıdır......
Bir az aşağıda  parlayır günəş.
Qızılı telləri - nur fəvvarəsi.
Tanrıya tərəfdi üzü günəşin.
 Şəfəqləri -  nur şəlaləsi.
Torpağın qəlbinə axıb tökülür.

Möhtəşəm bir tablo gözüm önündə.
Qəlbimə  yığdığım bu gördüklərim ,
Məni də göylərə çəkib  aparır.

***

Qırçın ləpələri
dənizin ətəyində
külək  darayır.
Qızılı qumlar
sahilin ətəyində
rəqs eyləyir küləklə.
Qağayı dimdiyində
bir körpə balıq.
aman istəyir.

***

Gümüş telli çinar,
Köksündıə bıçaq yaraşı.
Kölgəsində  görüşən  iki ürək

***

Oturacaq üstündə
intizarda  qalan
gül..
Oturacağın və gülün
üzünə çırpılan yağış.

“ Bunlar bir tablo,
Bunlar bir əsər.  “

## XOŞBƏXTLİYİN YOLU

Yanına gəlmişdim.
Sənsə yuxudaydın/
Xoşbəxtlik mənimləydi.
Sənin şirin yuxunu
qəlbimlə sığalladım.
Ayıldım,
küləklərin səsinə,
pərdələr yellənirdi.
uçurmuşdu yuxumu.
Əsən qəlb küləkləri
xoşbəxtlik gətirərmiş
qapını döymədən.

## MƏN ASILDIM ÜRƏYIMDƏN

Yazı  yazan ,
nə yazmısan belə sən?
Hər yazılan
yazılırmı görəsən?
Bəxtimiz alnımıza,
sevgimiz sinəmizə
yazılıb.
Ürəyimə yazılan
alnıma yazılmadı.
Başımızı qoruyub,
sinəmizi veririk,
taleyin gülləsinə.
Yazı yazan,
nədən yazdın belə sən?
Eşq dərgahı ürək imiş.
Mən asıldım ürəyimdən.

## BİR GECƏNİN OVQATI

Gecə yarıdan keçir,
Ay da gözümdə itir.
Dəniz özünü döyməkdə,
Gecə özünü öyməkdə.
Küçə lampası
zillənib  üzümə.
Yoldan bir maşın keçir,
Yollar kiçilir gözümdə.
Hər gəlişin əvvəlində
Bir döyüntü, addım səsi,
bir səda.
Yuxum gəlmir hələ də.
Yetim qalan gecəmdə,
Fikrim tanrı yanında.

## YAZIQ OLDU

Ürəyim  qanayır qüssədən,
Ömrümün xoş anları
heçmi oldu görən?
Nələr yağdı ürəyimə,
sevda dolu gəncliyimə,
gozəl hisslərimə?
Sellər-sular apardımı?
Nə keçmişim ürəkaçan,
nə bu günüm.
Bəxtim bəyaz yelkənlərə
qoşulub getdi, haçan?
Yazıq oldu  ürəyimə.

## İLLƏR KEÇƏCƏK

İllər keçəcək,
yaşımız ötəcək,
oğlumuz evlənəcək,
qızımız gəlin köçəcək.
Xeyirimizdə, şərimizdə,
şəhərimizin küçəsində,
küçəmizin döngəsində.
Salamlaşacağıq.
Hərdən baxışımız toqquşacaq,
ürəyimiz qopacaq.
Əllərimiz guya təsadüfən
bir-birinə toxunacaq.
Ruhumuz oynayacaq.
Eh! Hər şeydən danışacağıq.
Təkcə sevgidən savayı.

## ARZU

Çox istərdim yol gedəm.
Mənzərələr bir - bir
fikirlərə qoşulub gedə.
Düşüncələr geridə qala,
xəyal məni çəkib apara.
Gözlər məndən oğurlana,
yol boyu sıralanan
ağacları saya- saya .
Qəfil yağış yağa.
Ürəyim düşüb qala,
bir ağacın kölgəsində.,

## AĞ  BULUD

Ağ  bulud,ağca bulud.
Sanki gecə dənizdə
islanıb  duzlanmışdı.
Asılmışdı səmadan,
günəş qurutsun deyə.
Hərdən rəngi   saralır,
bəzən də bozarırdı.
Qorxurdu gələr gecə,
Onu qoparıb atar,
Yenə mavi dənizə.

## EY ADAM

Ayağımı qoymağa,
addım atmağa,
işləməyə, gəzməyə
düşünməyə
yer tapıram.
Əlimi uzatsam
tutmağa bir əl,
Arzularımı asmağa
budaq,
ürək sözümü yazmağa
yarpaq tapıram.
Təkcə qəlbimə
yer yoxdu.
Ey adam.

## BAĞIŞLARAM

Sevincimə  sədd çəkənim.
Sən çəkmə gəl, mən  çəkəni,
Mənə dönsən zülm edənim,
Günahını bağışlaram.

Ürəyimdən min qəm keçir,
Qatar-qatar durnam köçür,
Məni dərddən, qəmdən keçir,
Sənə ümman bağışlaram.

Göynəyirəm için-için.
Söruşmursan niyə, nəyçün?
Bircə anlıq sevinc üçün,
Sənə ömür bağışlaram.

## HƏYATIN DİBİNDƏ

Masamız üstündə dolu qədəhlər.
Qədəhlər içində tutqun istəklər.
Səbrimizsə dibində.
Soyuq barmaqlarımız
alışmayan şam kimi
gecənin özü rəngdə.
Qəlbimizi tökmüşük önümüzə.
Sevdamızın son günündə...
Acımızı çırpdıq qədəhimizə.
Qədəhlər çilikləndi.
Bir rəssam istəyirəm
çəksin bu rəsmi.

## SAHİLDƏYƏM

Sahildəyəm.
Yellənir havada
qayğısız bir  qağayı.
Izini örtüb,
ləpələrin atdığı
balıqqulağı.
Bir yandan musiqi.,
bir yandan
dalğalı dəniz,
səsləyir məni
Ürəyimsə sahilə
atılmış
çırpınan balıq.
Yırğalanır dənizdə
bir avarsız qayıq....

**QUYU**

Adəm oğlu ,insan
Yer üzünü
tapmayanda
quyu qazdı, zaman-zaman.
Dibi bilinməz, suyu görünməz.
Qaranlıq yaşatdı orda.
Gündə bir haqq asıldı,
Bir işıq boğuldu,
hər qazılan quyuda...
İlk quyunu kim qazdı
Kimlər sap olub keçdi,
bu quyunun gözündən?
Içimdə bir quyu var,
Diri yalanlara məzar.

www.kitabxana.net - Milli Virtual Kitabxana

MƏN VƏ SƏN

Bir dostuma

Sən də mənim kimi
duyğulu və
tənhasan.
Könül nəğməmizi
çiçəklər anlar.
Mən bir nəğmə oxuyaram,
heç zaman oxunmamış,
Sən bir şer deyərsən,
kimsəyə söylənməmiş.
Çiçək dənizində
batmaz ümidlər.

## GÖRDÜM Kİ

Gördüm ,
daha tərəzilərdə
aldatmırlar heç kimi.
Satan məmnundur,
alan razıdır.
Hər kəsin üzündən
təbəssüm yağır.
Daha həsrət, intizar
qübar da yoxdur.
Sərhədlər açılıb
sevinən çoxdur.
Hər kəs öz dilində
danışır, gülür.
Hamı deyiləni
anlaya bilir.
Xəyallarım dağıldı.
Qonşunun mətbəxində
qablar sınırdı.

## QƏLBİM

Yağışı qırmızı,
Günəşi yaşıl,
Dənizi bənövşəyi,
Düzəni gömgöy.
Dərəsi qarlı.
Dağı dumanlı.
Səması bir az çiskin,
Bir az tutqun.
Baxışı bir az dalğın,
Bir az yorğun.
Qəlbim naşı rəssamın
fırçasından çıxan
tabloya bənzəyir

## OLMADI

Köynək gördüm satışda.
Hər rəngdə,hər naxışda.
Cibimi axtardım,
Çantamı gəzdim,
əllərim utandı.
Götürüb balamı
bağrıma basdım.
Ona öpüşlərimlə
bir köynək biçdim.
Oğlum sevindi.
Mən də şadlandım.

## BİGANƏLİK

Doğmaların dərdini
özgələrdən öyrənir.
Günü aya, ayı ilə
calayıb,
Bir-birimizdən xəbərsiz
ömrü bada veririk.
Biganəlik toxum tək
könlümüzə səpilir.
Biganəlik -
yoluxucu xəstəlik.
"Quş qripi" ndən deyil.
biz ondan öləcəyik.

## ÇAĞIR  GƏLİM

Deyirsən ki,təksən.
Yalqızsan indi.
Çağır yanına gəlim.
Gələcəm səssizcə,
dinməyəcəyəm.
Sənin sükutunu
dinləyəcəyəm.
Çəkilərik içimizə,
dayanarıq üz-üzə.
Ulduzun aya,
yarpağın budağa
baxdığı kimi.
Çağır gəlim.
Köməyinə
çatmasam da
səsinə  çatım.

# TƏNHALIQ

Tənhalığın bu üzündə-
səssizlikdə.
Özünü qara dirəklərə vuran
kor küləklərin ufultusu.
Tufanlarda dolaşan
kar duyğuların uğultusu.
Tənhalığın özündə-
sökür içimdəki sükutu
yalquzaq ulartısı.
Tənhalığın bu üzündə
sənsizliklə baş başayam.
Tənhalığın o üzündə
sənsizliyin başdaşıyam.

## ALIŞMADIM

Alışmadım
Yeknəsəq günlərin
adiliyinə,
Pillələrin üzü üstə
düzülüşünə.
Zamanın enişinə.
Yolların yoxuşunu seçdim.
Hər ocağa yanaşmadım.
Hər ürəklə danışmadım.
Alışmadım,
Od yerində kül görməyə.
Ürəyimi oda atdım.
Alışdım ancaq......
həyatın qəfəs boyda
böyüklüyünə.
Sənə görə.
Səni görüm deyə.

## NÖVBƏ

Hər şey növbə ilə gəldi,-
əvvəl arzu, sonra istək,
sonra səadət, dilək.
Növbəyə durmaqdan
          canı sıxıldı.
Dayanmışdı axırda,
Kənara çıxdı ayrılıq.
Durdu sevginin yanında.
Vüsaldan qabaq.

## YARPAQLAR

Yarpaqlar  ömrümün
Sarı, yaşıl günləri.
Ilahi baxış altda
ürəyim titrəyən yarpaq.
Könlümün nur selinə
bir badədir o yarpaq.
 "Sərxoş" yolun yolçusu,
iç badəni doyunca.
Sən də sərxoş olunca.
Gözlərimdən ləçək yağır.
Yarpaqarışıq hər gecə.

## HƏR SƏHƏR

Günəş hər səhər,
qızılı tellərini
səmanın sinəsinə sərir,
Suların yanağından öpür,
Güllərin göz yaşını silir.
Buludlar qorxaraq
üfüqə çəkilir.
Boz duman utanıb gizlənir.
Insan seviləndə, sevəndə,
gözəllik üzünü göstərir.
Hər səhər.....

## SEVİNC

Yüksəklikdən yıxıldım.
Dərəyə yox.
Buludların üstünə-
Göy üzünün taxcası,
arzularımın boxcası
olan buludların.
Ah! Nə gözəl,
Yenə də yüksəkdəyəm.

## ÜMİD

Ümid- qönçə  içində
açan  çiçək.
Ümid- yalanlar içində
bir gerçək.
Zülmət gecələrin
qaranlıq səhrasında
közərən işıq.
Gülümsər könülə
mehriban, ilıq.
Ümidlər qoynunda
açılır sabah.
Hər günəş doğanda
arzu göyərir.
Ümidlər qoynundan
boylanır ömür.

## SARI

Solanda ağ gül də saralır.
Hər rəngin içində
bir sarı rəng var.
İstədiyinə vermədilər
Sarı gəlini.
Dərddən
teli ağardı.
Sazın sarı simində
Yandı "Yanıq Kərəmi "
Ağappaq arzularım
Daş üstündə çiçəklədi –
sapsarı.
Ürəyimdən su içir.
Sarı-sarı çiçəklər.
Dəli sevdam
üzünü qoyub
çiçəklərə , hönkürür.

## AĞRI

Biz ana bətnindəykən
Bizdən qabaq
doğulur ağrı.
Dünyanın ağrısı
özü boyda
Üzünü
ağardan qar da
Yağır göy üzünün
ağrısı kimi.
Yerin ağrısı -dağlardır.
Başına hey qar yağır.
Qalmışam yer ilə
Göy arasında
qarala-qarala.
Ağrı dağıyam.
AĞRI,

www.kitabxana.net - Milli Virtual Kitabxana

**AXTARIŞ**

İllər boyu
hey səni aradım.
Bəlkə də heç
axtarmadığım
sən idin.
Gümanlarımın
üzülən yerində,
gəldik üz-üzə
Başımı qaldırıb
gözünə baxdım.
İlahi ! Orada mən vardım.
Yaşanmayan bir ömrün
başlanğıcına dönmək  üçün ,
mən  sənli bir yolun
sonuna vardım.

***

Daşı düşən divar da,
Yerə düşən daş  üşüyür.
Bir üzündə mamır göyərir.
Üzündəki yaş da üşüyür.
Bir ev var uzaqda.
 Bizi gözləyir.

## İŞARƏLƏR

Elə cavablar var,
sualı yoxdur.
Elə suallar var,
cavabı çoxdur.
Elə sual da var.
özü cavabdır.
Nidalar dayanıb
başı üstündə.
Bəzən nöqtə durur
bir söz yerinə.
Vergüllər cümlənin
belini qırır.
Bütöv bir həyatdır,
bu işarələr.

## SEVGİ DÜNYASI

Qəlbimin asimanında
buludlar çiçək açıb.
Mavi işıqlar süzülür.
Bir ulduz parlayır-
məhəbbət həsrətiylə.
Nəğməli gecələrdə
sevgi laylası eşidilir.
Gözlərimdə işığı görüb,
Göy üzündə Ay sevinir.
İçimdə heç zaman
odu sönməyəcək
bir dünya var-Sevgi dünyası.

## QƏRİBƏM, AY ANA

Bəxtim gedib çox uzağa,
Qapı  açıb ayrılığa,
Ahım çatmır daha dağa,
Qəribəm, ay ana, qəribəm.

Könlüm bilmir yuva nədir,
Ruhum dəli, divanədir,
Qəbir evim viranədir.
Qəribəm, ay ana,  qəribəm.

Bu dünyanın  qibləsi bir,
Olumu bir, ölümü  bir,
Qərib kəfən gor istəmir.
Qəribəm, ay ana, qəribəm.

Həyat  burda  seçimdədir?
Köç edənlər köçündədir..
“Qürbət özü içimdədir”.
Qəribəm, ay ana, qəribəm.

.

## SONUNCU YOLDA

Orada özümdən qopacam.
Çıxacam orbitimdən.
Məni sənsizlik qarşılayacaq.
Əlimi qəlbimə atacam,
Sənli günlər çıxacaq.
Xərcləməyə qıymayacam.
Bir nur seli
alacaq ağuşuna .
bir meteor kimi parlayıb
 səpələnəcəm Yer üzünə.
zərrə-zərrə ,
Orada- sonuncu yolda.

www.kitabxana.net - Milli Virtual Kitabxana

## MƏNİM ŞERLƏRİM,

Mənim şerlərim –
Duyğularımın dadı,
Qəlbimin rəngi,
Cismimdə ruhumdur.

Mənim şerlərim-
Kimsəyə deyə bilmədiyim.
Heç kimlə bölüşmədiyim
Gizli sirrimdir.

Mənim şerlərim-
Özümə məktubumdur.
Tənhalığımın özüdür.
Taleyimə sözümdür.

## SAXLA MƏNİ ÜRƏYİNDƏ

Qəfil yox olaram.
Ulduzlar kimi
axıb gedərəm.
Küskün baxışlarım
soyuq mirvari tək
sarılar boynuna.
Üşüyərsən yatağında .
Bir sabah ayılanda
qəlbindəki çiçəyi
solan görərsən.
Baxarsan ki,
ütüsüz köynəyin
qırışı
alnındakı qırışların
sayı qədərdi.
Üstü qaymaqlanan
soyumuş çayını
təzələməyə ərinərsən.
Qaşlarınl çatıb,
fikrə gedərsən.....

.

**DÜŞÜNCƏLƏR.....DUYĞULAR**

Həyatımda çox şeylər oldu.
Olanlar ola-ola
olmazlıq içində yaşadım.

***

Adını buludlara yazdım.
Yağış olub ovcuma süzüldü.
İçdim...
Adın da özün tək acı.
Bu yağış yağmayaydı kaş,
Pozmayaydı  buludların səfini.

***

Əziziyəm güləndi.
Sinəm ahdan küləndi.
Yollarına baxmaqdan
Yarpaq düşdü, gül endi.

***

Əziziyəm üzüldü.
Dərdim sapa düzüldü.
Yüz dərdə dözən canım,
yüz birində üzüldü.

***

Daşlarıyla daşladıq.
Daşlarını daşıdıq.
Dağ çəkdirdik dağlara.

***

Kələklər küləklə gəlmir.

***

İçindəki qaranlığı görmək üçün
aydın  düşüncələrə dalmalısan.

***

Həyat cizgi filmidir.

***

Təkcə sevdası deyil,
Bu dünyanın taleyi də
suya yazılib.

***

Sözlərin dilinin altındaydı.
ürəyində olsaydı,
çoxdan oxuyardım.

***

Yazıma gül yağışı səpdin,,
Payızıma yarpaq,
yayda  qar əlsədin ömrümə.

***

Hət şeydə bir təzad,
bir əkslik, bir inkar.
Yaşayır bunların
əhatəsində insan.

***

Olanlara  mat qalmışam.
Yuyub məni yaş aparır.
Damla- damla axan bulaq.
Götürüb bir daş aparır.

***

Səndən o tərəfə bir kimsəm yoxdur.
Səndən bu tərəfə kimsəsizəm mən.

***

Saxta təbəssümlər qılınc tək
parçalayır ürəyimizi.
Yalanlar  çiynində gora gedirik.

***

İnsan xoşbəxtlik tapmayanda
bədbəxt deyil.
Ona xoşbəxtlik verən tapılmayanda
o bədbəxtdir.

***

Aramızda bir nəfəs qədər  məsafə.
Aramızda illərin məsafəsi.

***

Kölgələr  küləyin  əlində əsir.
döngələr  yolların önünü kəsir.
Bəlkələr insanın  ömründə gəzir.

***

Elə hey yağışlar yağır səbrimə.

***

Bizim məhəbbət hekayəmiz bitmədi.
Sonundan bir neçə vərəq cırılıb  itib.

***

Kaş yalanlar doğru,
Doğrular yalan olaydı.

***

Ağlın döngəsində  büdrəyəndə.
Taleyin kolgəsində  üşüyür insan.

***

Qadın sevəndə azadlığını qurban verir.
Kişisə azadlığa meydan oxuyur.

***

Yarımçıq sevdalar olmasaydı,
Bütöv ürəklər olmazdı.

***

Darıxmışam,
qəlbimdən qəlbinə
işıq daşımaq üçün.

## SÖZÜN QÜDRƏTİ

İnsanla azadlığı arasına
çəkilən tikanlı məftillərə
öncə insanın səsi ilişir.
Yaralı səs –
işığı öləziyən
gözün son nuru.
Qanı sözə çilənir.
Qanda cücərən sözlər
azadlığa boy atır.
İnsanla azadlığı arasına
çəkilən məftilləri
sonda sözlər aşır.
Sözlər səsin azadlığıdır.

Yükmü oldum qəlbinə ,
Daşmı olub asıldım.
Ağırmı gəldim sənə?
Bir daş atdın,
mən boyda.
Duyğuların gölünə.
Oldu pərən – pərən
üzən  sevincim.
Acı təssüf və
peşimançılıq
lillənib könlümün
dibinə çökdü.
Yerində həyəcan ,
bir də ki, uçan
xəyalların kölgəsi qaldı.
Bir də heç nə qaldı,
qalmadı heç nə.

GEDİRƏM

Buza dönmüş əllərindən ,
Qar götürüb gedirəm.

Odu sönmüş ürəyindən
Qor götürüb gedirəm.

Göz yaşlarım gilə- gilə,
Dər , götürüb gedirəm.

# SUYA YAZILAN SEVDA

## SUYA YAZILAN SEVDA

Bu şer suya yazılıb:
Könlümdən başlayıb
axır üzü çaylara.
Çiçəklərin üzündə
kövrəlir damla –damla.

Bu şer sabaha yazılıb:
Ürəyim üfüqündə.
“Qanadır “ sinəsini
bəxtimin saatları.
Döşənir ayağına
gecənin ulduzları.

Bu şer sevdaya yazılıb:
Bələnib ay işığına.
Bu sevda nə sənə,
nə mənə.
Bu sevda suya yazılıb/

# SƏNSİZ GECƏ

Bu gecə sənsiz keçən gecədən biri,
Bu gecə istəklərin gecəsi.
Qaranlığı yaran ay işığından
bir işıq yolu çəkiləydi sizə.
Düşüb o cığıra əlimdə ulduz ,
gələydim otağına.
görəydim , bu gecə səndəmi yalqız?
Sənin yuxundamı göydən asılıb?
Qatı qaranlıqlar dərindən dərin,
Bu gecə bu zülmət məni boğacaq.
Üstümə yeriyən saatlar oyaq.
Bu gecə sənsiz keçən gecədən biri,
Bu gecə vüsala bir addım yaxın,
Ümidli səhərə açılan qapı.
Ay gecə , sən məni yadında saxla,
Gümanın işıqdan getməz uzağa.

## ÇILPAQ BUDAQ

Yarpaqları saplaq-saplaq
bozarır.
Budaqları yarpaq-yarpaq
qocalır.
payızı düşən ağacların.
Üzülən yarpaqları
soyuq torpaqlar öpür.
Yarpaqsız budaqları
boz dumanlar dalayır.
Ürəyinə girərək.
Daş səkidə oturan,
Dizini qucaqlayan.
qadın da -
çılpaq budaq tək
payız heykəli.
Qış günəşinə isinməz,
Quş səsinə diksinməz.

## AYRILIQ - DAR AĞACI

Ayrılıq - bir dar ağacı.
Ilməsi boğazımda.
Hökm taleyin əlində,
Hakim isə sən..
Hər ikiniz amansız,
Hər ikiniz insafsız.
Üzülüb əlim sizdən.
Üzün MƏNi də yerdən.
Qatın mənim eşqimi,
Qatın Allah eşqinə!

## YOLLAR

Ürəyimə
gələn yolla.
Ürəyinə
gedən yolun
yol ayrıcında
dayanmışam,
əllərim qoynumda.
Gözlərindən ürəyimə
gələn yola
dəstə-dəstə gül ələnir.
Ürəyinə gedən yolda
ümidlərim güllənir.
Gözlərimdən ürəyimə
gələn yolu
dolu döyür,
Sel ələnir
Bu yolların sonu gəlib.
Göz yaşında nöqtələnir.

## YOXDU

Günün batan vədəsidi.
Bu günün heç nəyi yoxdu.
Heç nəyim yoxdu bu gün.
Nə qəmim var, nə sevincim,
nə də sevməyə həvəsim.
Yoxdan yaranib hər şey-
həsrət, məhəbbət.
Qəlbim yoxdan yaralanıb.
Gözümdə bir damla şeh.
Heç nəyim yoxdu bu gün.
Heç nəyi yoxdu bu günün.
Ancaq bu yoxlarda nəsə,
nəsə var....

www.kitabxana.net - Milli Virtual Kitabxana

## HARAY

Dağlar boydadı dərdim,aşa bilmirəm.
Dərdim çox dərindi, daşa bilmirəm.
Yığım yollarını gözümə bəlkə.

Çox-çox uzağam özümə.
Getdiyin yol kəsib yolumu
Gələ bilmirəm özümə.

Yağır payız yağışı,
İslanıb üst başım.
Qarışıb yağışa
gözümün yaşı.
Harayım zildən yuxarı
Hayın bəmdən aşağı.

.

## ÖMRÜMÜN YAZ SƏHƏRİNDƏ

Mən bir gün ömrümün yaz səhərində
Boylandım dünyaya çiçək gözüylə.
Bu dünya günəşin al şəfəqiylə,
Nazlana-nazlana xumarlanırdı.
Gül üstdə damlalar bəhsə- bəhs ilə,
Günəşin gözünü qamaşdırırdı.

Son bahar ömrümün yaz səhərində,
Bağda qızılgüllər alışdı, yandı.
Bir sevən ürəyin hərarətindən
Mənim də könlümdə ocaq qalandı.

Qəlbimin aynası olan gözümdə,
O sevən baxışlar hey güzgüləndi.
Mən bir gün ömrümün yaz səhərində.
Anladım,sevənə qış da gözəldi.

**HEYF**

Bildiyin kimi deyil hər şey.
Heyrətim ahımdan böyük.
Nə küləm,nə də tüstü.
Bir zaman ocaqdım.
Başımda dəli rüzgar,
Qapımı döyür külək,
Soyuqdan təntiyərək.
Bir kösöv közərir
evin küncündə.
Taleyin sonuncu
ümidi kimi.
Bildiyin kimi deyil hər şey,
Bilmədiyin kimidi heyf...

## GÖRÜN GEDİM

Gəldim,səni görüm gedim,
Gözlərimə görün gedim.
Əllərini tellərimə,
Qulac edim, hörüm,gedim.

Məni sənin bilib gəldim.
Göz yaşımı silib gəldim,
Ayrılığa gülüb gəldim,
Icazə ver, gəlim-gedim.

Nazilənin varı sənsən,
Yarı özü,yarı sənsən.
Eşq bağının barı sənsən,
Qoy barımdan dərim, gedim.

## ŞAM İŞIĞI

Şam işığı, əriyirsən
ömrüm kimi.
Yoxdu tüstün,
yoxdu istin.
Yad nəfəsdən
neçə yerdən sınırsan.
Diksinirsən, titrəyirsən,
yanırsan.
Sanki gecənin ürəyisən.
Bəlkə, qəlbimin közü,
Həsrətimin gözüsən?
Ah, necə də solğunsan.
Yoxsa, bitən arzumsan?
Şam işığı,
Sinəmdən qopan ah tək
Gecənin qoynunda itəcəksən.

## BEZMİŞƏM

Ağlımın əlindən bezmişəm.
Ağılsız olmaq istəyirəm,
Heç olmasa bircə gün.
Baxışlardan keçərək,
Üstünə yüyürərək,
Ürəyinə sarı getmək üçün
Ağlımın ürəyimə yazığı gəlmir.
Ağlımın ürəyimə sazağı gəlir.
Ağılsız olmaq istəyirəm.
Heç olmasa bircə gün.
Dəli hisslərimi ovutmaq üçün.

## QƏM OLDUN

Doğmaların doğmasıydın,
Ürəyimin nəğməsiydin,
Bir ilahi bəndəsiydin,
Indi kim oldun, kim oldun?

Uçurtdun eşq sarayımı,
Ağlar qoydun gəraylımı,
Eşitmədin harayımı,
Mənə qəm oldun, qəm oldun.

Sinəm üstdə dinən sazdın,
Sən ömrümə dönən yazdın,
Taleyimə tale yazdın.
Sarı sim oldun, sim oldun.

## ÖMÜR ARTIQ YARIDI

İkimiz də
bir yolun adamıyıq.
Addımlayırıq.
Sən bir səkidə
Mən bir səkidə.
Birimiz üzü bu yana ,
Birimiz üzü o yana.
Mənim gözlərimdə çən,
Sənin saclarında dən.
Duyğumuzda intihar,
Baxışımızda qübar.
Bu uzanan yolun
bir ucu sənindi.
Bir ucu mənim.
Birlikdə bütövüydük.
bu yol bizi ayırdı.
Tutub onun əlindən
biz hayana gedirik?
Ömür artıq yarıdı.
Nə sən, nə mən yarıdıq.

## BİLMƏDİN

Səssiz nəğməyə döndün,
dodağımdaca dondun...
Nə vaxtdır o duyğular
varlığımda  yuxular.
Bircəsini oyatmağa
çığırsan da təhərin yox.
Yarımçıq bir cümləsən-
Mübtədan var,xəbərin yox.
Cavabsız bir sualsan,
havada quruca səs.
Təyinin öz yerində,
Tamamlığın, sifətin bəs?
Üşütdükcə sevgimi,
qəlbimə dola bilmədin.
Var oldun sən, var oldun,
Varlıq ola bilmədin!

## YAŞIL PIÇILTI

Yarpaqların
yaşıl pıçıltısında,
Əlvan rənglərin
parıltısında,
Bir ilahi eşqin
sehrinə düşdüm.
Bulaqların nəğməsində,
dinlədim bir qəlbin
titrək səsini.
Gördüm gecələrin
göy qübbəsində
O tənha ulduzun
titrəməsini.
Yarpaqların
yaşıl pıçılısından
süzüldü eşqim.
SEVDİM!